**A.R.HÜSEYNZADƏ**
*e-mail: azahuseynzadee@mail.ru*

**Gəncə Dövlət Universiteti**
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

# MÜASİR SOSİAL MÜHİTDƏ UŞAĞIN MƏKTƏBƏ HAZIRLANMASININ BAŞLICA CƏHƏTLƏRİ

***Açar sözlər:*** *tərbiyə, təfəkkür, oyunlar, səhnəciklər, məktəbəqədər tərbiyə müəssisələri.*
***Ключевые слова:*** *воспитание, воображение, игры, сцены, дошкольные воспитательная учреждения.*
***Key words:*** *education, imagination, games, plays, pre-school, education institutions.*

Hər bir ailədə körpə dünyaya gəlir, böyüyür, məktəbə gedir. Onun bu gününü hər bir valideyn səbirsizliklə, ürək çırpıntıları ilə gözləyir. Hər bir uşağın ən parlaq, həyəcanlı, kövrək anları və yüksək əhval-ruhiyyəsi bu günlə bağlıdır. Bununla şəxsiyyətin formalaşmasının yeni və çox məsuliyyətli mərhələsi başlanır. Bu ilk addımın uğurluluğu məktəbəqədərki dövrdə valideynlərin öz övladlarının təlim-tərbiyəsi ilə necə məşğul olmalarından asılıdır.

Nəzərə almaq lazımdır ki, valideynlərin pedaqoji hazırlığının və pedaqoji biliklərə ehtiyaclarının səviyyəsi müxtəlifdir: yüksək səviyyəli pedaqoji hazırlığa malik, qismən hazırlığı olan və heç bir hazırlığı olmayan valideynlər var. Təcrübə göstərir ki, nəinki pedaqoji hazırlığı olmayan, hətta hazırlıqlı valideynlərin bir qismi uşaqların tərbiyəsi üzrə biliklərə ehtiyac hiss edirlər. Onları düşündürən uşağının sağlamlığının təmin edilməsi, təlim əməyinin, yaradıcı fəaliyyətinin, boş vaxtının təşkili, bütövlükdə şəxsiyyət kimi formalaşdırılmasıdır.

Valideyn, həmçinin tərbiyəçi pedaqogika və psixologiya elmləri tərəfindən toplanmış nəzəri biliklər sisteminə az-çox yiyələnməli və uşaqla ünsiyyətində onu rəhbər götürməlidir.

Uşaqlarda ilkin ictimai əlamət və keyfiyyətlərin yaranmasında ailə başlıca rol oynayır. Uşaqların tərbiyəsi yalnız valideynlərin şəxsi işi olmayıb, həm də ictimai vəzifədir. Belə ki, şəxsiyyətin qiyməti həmişə onun cəmiyyət üçün əhəmiyyəti ilə müəyyən edilir. Ona görə müstəqil Azərbaycan dövləti də ailəyə böyük əhəmiyyət verir və ona qayğı ilə yanaşır. Uşağın müvəffəqiyyətlə tərbiyə olunması üçün məhəbbət və qayğı ilə yanaşı, ailənin ümumi mikroiqlimi də mühüm rol oynayır.

Müşahidələrimiz göstərdi ki, I sinfə gələn uşaqların təxminən 40-41 faizi uşaq bağçalarında ictimai tərbiyə görənlərdir. Məktəbəqədər tərbiyə müəssisələri uşağın sonrakı inkişafında, onun qabiliyyətinin, sosial əhəmiyyətli keyfiyyətlərinin formalaşmasında mühüm rol oynayır. Son dövrlərdə uşaq bağçası tam mənası ilə məktəbin astanası olmaqla uşağın idraki və yaradıcı qabiliyyətini inkişaf etdirir. Çox təəssüf ki, məktəbə gələnlərin xeyli hissəsi yalnız ailə hazırlığını görür. Ona görə də valideynlər, xüsusilə gənc valideynlər yalnız pedaqoji, psixoloji biliklərə yiyələnməklə kifayətlənməməli, həm də əldə etdikləri bilikləri şəxsi təcrübələrində tətbiq etməyi, övladı ilə davranışına nəzarət etməyi öyrənməlidirlər.

Uşağın məktəb təliminə hazırlığından söz düşəndə, adətən, valideynlər, həmçinin tərbiyəçilər onun çoxlu məlumata, saysız-hesabsız informasiya ehtiyatına malik olması kimi qəbul etmişlər. Uşaq çoxlu şer, nağıl, tapmaca bilirsə, dil-dil ötürsə, "Yerin altını da üstünü də bilir"sə, deməli, əqli cəhətdən inkişaf edib. Bu gün həmin anlayış məzmununu dəyişmişdir. İndi əqli inkişafın səviyyəsi uşağın müstəqil müşahidə, araşdırma aparma, müqayisə etmə, mühakimə yürütmə, dediyini sübuta yetirmə, əqli nəticəyə gəlmə bacarığı ilə ölçülür. Təəssüratın çoxluğu uşaqları yora bilər. İnformasiya və biliklərin uşağın fikri fəaliyyətinin nəticəsi olması isə onları yeni axtarışlara həvəsləndirir. İndi uşaqlara informasiya verməkdən

daha çox öyrənməyi öyrətmək tələb olunur. İlk addımlardan müstəqillik onların yaradıcı şəxsiyyət kimi formalaşmalarına təkan verir.

Bu məqsədlə hər bir addımda uşaqlara düşünməyi, mühakimə yürütməyi tələb edən suallar vermək, problem situasiya yaratmaq məsləhətdir. Uşaq düzgün cavab verəndə "Nə üçün belə düşünürsən?", "Bunu nədən bildin?" "Daha necə deyə bilərsən?" və s. kimi suallarla onun zehnini fəaliyyətə gətirmək lazımdır. Sadə bir misal: uşağa kağızdan, tikinti materiallarından, konstruktor dəstindən müxtəlif şeylər quraşdırmağı öyrətmək lazımdır. Nümunəyə görə quraşdırmaq yarımmüstəqil xarakterli faəliyyətdir. Yaxşı olar ki, verilmiş şərtə görə qruplaşdırmaq tələb edilsin. "Kubiklərdən elə qaraj tik ki, sənin maşınlarının ikisi yanaşı girib çıxa bilsin". O qarajı tikib qurtardıqdan sonra işi hansı ardıcıllıqla görməsi, nə üçün məhz bu ardıcıllıqla görməsi xəbər alınmalıdır. Bu, uşağı yaradıcı təfəkkürə, fikri fəallığa təhrik edir.

Uşağın intellektual inkişafı hər addımda onun müstəqilliyini tələb edir. Uşağa hər şeyi hazır təqdim etmək, sual verdikdən sonra fikirləşməyə imkan verməyib kömək göstərmək onun müstəqilliyini boğur. Uşağa həddən artıq nəzarət onun məsuliyyətini azaldır. A.S.Makarenko yazmışdır: "Əgər uşağı həmişə "pedaqoji kəndirdə" tutub saxlasaq tərbiyə üçün çox vaxt tələb olunar. Daim himayəçilik, valideynlik qayğısı onun iradəsini iflic edir. Elə tərbiyə yalnız zərər verir, o qeyri-fəal və zəif iradəli adamlar formalaşdırır" (5, s.162). Uşağa kömək nə qədər çox olarsa, uşaqla işləyərkən valideyn nə qədər fəal olarsa, nəticə o qədər pis olar. Uşaq körpəlikdən öz gücünə inanmalı, şəxsi məsuliyyət anlayışına yiyələnməli, kimsədən kömək gözləmədən öz sözünü deməyə çalışmalıdır. Bunu nəzərə alaraq valideyn uşaqla məşğul olarkən onun fəaliyyətinə rəhbərliyin üç növü olduğunu unutmamalıdır:

1. Uşaq valideynin (yaşlının) fəaliyyətini əks etdirir; valideyn hər şeyi necə yerinə yetirəcəyini incəliklərinə qədər izah edir, uşaq sadəcə olaraq onu yamsılayır.

2. Uşağın fəaliyyəti yaşlı ilə eyni vaxtda (sinxron) yerinə yetirilir. Hər kəs ayrıca işləyir (məsələn, plastilindən fiqur düzəldir), nəticəni tutuşdururlar. Bəzən birgə yerinə yetirirlər.

3. Uşaq daha fəal axtarıcılıq situasiyasına salınır. Tapşırıq tam müstəqil yerinə yetirilir. Bacarmadıqda valideyn ikinci yola qayıdır.

Uşağın məktəbə intellektual hazırlığı geniş mənada onun psixi hazırlığı ilə bağlıdır. Uşağın intellektual səviyyəsi onun hiss orqanlarının inkişafından asılıdır. Hələ erkən onun diqqətini müxtəlif əşyalardan hazırlanmış müxtəlif ölçüdə, formada, rəngdə əşyalara yönəltmək, görmə, eşitmə, lamisə duyğularını inkişaf etdirmək lazımdır. Məlumdur ki, dinləmək eşitmək, baxmaq isə görmək demək deyil. Adətən, ən maraqlı bir bədii əsəri oxuyan valideyn, tərbiyəçi "Başa düşdünmü?" deyə soruşanda uşaq "bəli" deyə dillənir, lakin əsərdən nə isə xəbər alınanda cavab verməkdə çətinlik çəkir. Bəzən bədii parçada söhbətin nədən getdiyini bilmir. Nə üçün? Çünki onun diqqəti tamamilə başqa sahəyə yönəlib. Onu bədii əsər yox, yoldaşları ilə oynamaq, yoldaşında qalmış qələmi almaq, televizora baxmaq, meyvə yemək, şəkil çəkmək düşündürüb. Tərbiyəçinin göstərdiyi əşyaya diqqətlə baxdığı halda, divardakı başqa əşya şəkilləri, yoldaşının hərəkətləri onun diqqətini cəlb etdiyindən tərbiyəçinin göstərdiyini qavramır. Ona görə də uşaqların eşitmə və görmə duyğularının inkişafına diqqət yetirilməlidir. Bunsuz əqli inkişaf mümkün deyil.

Gözlərini həyata yenicə açan uşağın əşya və hadisələr haqqında məlumatlara yiyələnməsi onun üçün sanki bir kəşfdir. İkiyaşlı hər şeyi öyrənməyə həvəs göstərir. Bu, uşağın daxili tələbatına, bilik əldə etməkdə inadkarlığa çevrilir. Uşağın tanış olma səyi öyrənməyə ehtiyacdan irəli gəlir. Onda hər şeyə nüfuz etmək arzusu yaranır. Valideyn, tərbiyəçi uşaqda baş qaldırmış maraq və meyli öyrənməli, istiqamətləndirməli, inkişaf etdirməlidir.

Məktəbə gedəcək uşaqlarda fantaziyanın inkişafına da diqqət yetirilməlidir. Altıyaşlılarda fantaziyanın ilk rüşeymləri və onunla bağlı fantastik yaradıcılıq qabiliyyətləri özünü büruzə verir. Uşaqları sehirli nağıllar aləmindən yavaş-yavaş bu günün elmi-texniki həqiqətlərinə yaxınlaşdırmaq lazımdır.

Tədqiqat nəticəsində müəyyənləşdirdik ki, uşağın məktəbə hazırlıq səviyyəsinin öyrənilməsi müasir dövrün ən mühüm tələblərindən biridir. Ona görə də ibtidai sinif müəlliminin ilk mərhələdə məqsədi uşaqların məktəbə intellektual hazırlığının səviyyəsini öyrənməkdən, hər bir uşaq haqqında müəyyən qənaətə gəlməyin yollarını müəyyənləşdirməkdən ibarət olmalıdır.

Təlim strategiyasını düzgün seçmək və uşağa məhz nələri öyrətmək lazım gəldiyini müəyyənləşdirmək üçün atılmalı ilk addım onun inkişaf səviyyəsinin qiymətləndirilməsidir. Uşağın inkişaf səviyyəsinin qiymətləndirilməsi, başqa sözlə, testləşdirilməsi prosesi, valideynlərin bir çoxunda həyəcan doğurur. Onlar qorxurlar ki, birdən uşaq düzgün cavab verməz, biabır olarlar. Yaxud uşaq pisikər, qorxar.

Bütün bunlara baxmayaraq övladı geridə qalan hər bir valideyn onun nələri bildiyini, nələri bilmədiyini, nələri bacardığını, nələri bacarmadığını bilmək istəyir. Onlar uşağı haqqında çox informasiya əldə etmək və onun nöqsanlarını aradan qaldırmaq istəyirlər.

Pedaqoqlar, psixoloqlar tərəfindən uşağın inkişaf səviyyəsinin qiymətləndirilməsi valideynlərin, tərbiyəçilərin gözlərini açır, uşağın şəxsiyyətini güclü və zəif cəhətlərini, qarşıya çıxan çətinlikləri görməyə və onları aradan qaldırmağa yönəldir. Qiymətləndirmə valideynə düşünmək, araşdırma aparmaq üçün qida verir.

Son illərdə "pedaqoji diaqnostika" anlayışı da təhsil sisteminə ayaq açmışdır. Pedaqoji diaqnostikanın məqsədi uşaqların məktəb təliminə, xüsusilə savad təliminə və riyaziyyatın mənimsənilməsinə nə dərəcədə hazırlanmalarını, sosial vəziyyətini müəyyənləşdirməkdir. Pedaqoji diaqnostika hər bir uşağın təlim materialını mənimsəmə səviyyəsini öyrənir, təlim tapşırıqlarını yerinə yetirmələri üçün fərdi yanaşmadan istifadə olunur.

Diaqnostika aparmağa alışmış tərbiyəçi, valideyn bir halda uşağın məktəbə daxil olma vaxtını gecikdirməyi, digər halda daha qabiliyyətli uşaqları müəyyənləşdirməyi, üçüncü halda uşağa yanaşma tərzini, uşaqla təlimin təşkili qaydasını müəyyənləşdirməyə çalışır. Hər hansı halda uşağın hazırlığı, imkanları, diqqət yetirilən zəif cəhəti, istinad olunmalı qüvvətli yeri müəyyənləşdirməyə imkan verir.

Uşağın məktəbə hazırlığını yalnız onun yerinə yetirdiyi tapşırığın nəticəsi ilə ölçmək düz deyil. Bu nəticəyə ümumi təsəvvürün fonunda baxmaq, aşağıdakıları nəzərə almaq lazımdır: sərbəstdir, həvəslə əlaqəyə girir, ünsiyyət saxlayır (sıxılır, utancaqdır, qapalıdır); nitqi sərbəstdir, lüğət ehtiyatı zəngindir, yanlış söz və ifadə işlətmir (hıqqana-hıqqana danışır, fikrini ifadə etmək üçün lazımi söz tapa bilmir, dialektizmlər, rus dilinə məxsus sözlər işlədir); fikrini rabitəli, sərbəst ifadə edə bilir (qırıq-sökük, məzmunsuz ifadə edir); başqalarını dinləyə bilir, mahiyyətini anlayır (başqalarını dinləyə bilmir, dolaşıqlıq, diqqətin yayınması nəticəsində gec anlayır); sürətlə, ardıcıl, uzun müddət fəal iş görə bilir (ləngdir, fasilələrlə, yarı-yarımçıq iş görür); tapşırıqla maraqlanır, ona məsuliyyətlə yanaşır (maraq göstərmir, laqeyddir, məsuliyyətsizdir) və s.

## Ədəbiyyat

1. Abbasov A.N. Milli əxlaq və ailə etikası. - Bakı, Mütərcim, 2016.
2. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. - Bakı, "Ozan" nəşriyyatı, 2008.
3. Əliyev R.İ., Əliyeva G.N. Şəxsiyyətin psixologiyası. - Bakı, ADPU nəşriyyatı, 2010.
4. Əliyev R.İ. Mentalitet. - Bakı, Mütərcim, 2009.
5. Makarenko A.S. Seçilmiş əsərləri. - M., "Prosveşenie", 1997
6. Uşağa istiqamətləndirilmiş proqramın təşkili. - Bakı, "Ünsiyyət", 2012.

**А.Р.Гусейнзаде**

**Основные черты подготовки детей к школьному обучению в современном социальном обстановке**

***Резюме***

В статье показано, что подготовка детей в школу являясь многонаправленным процессом зарождает необходимость соблюдения определенных педагогических требований. В этом процессе необходимо обратить особое внимание на самостоятельность и интеллектуальное развитие ребенка. Определено, что это развитие связано с умственной зрелостью ребенка, которое возможно достигнуть параллельным развитием чувств слуха и зрения.

Статьей могут пользоваться воспитатели детского сада, учителя начальных классов и исследователи.

**A.R.Huseynzade**

**About the basic directions of preparing of children to school edication**

***Summary***

In article, showed that, preparing of children to school is a variousdirectly process, which is doinq necessary oə some pedagogical issues. In this process i tis important to have special kindness to the sustainable intellectual development of a child. Has been determined that, this deverlopment is relation with the braing progress of a child, which is possible to have a parallel deverlopment of sensory of seeing and hearing.

This article is used by the teachers childhoods, also pedagogs if primary classes and investigations.

*Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev*

*Redaksiyaya daxil olub: 25.05.2022*